**UOT 327**

# CƏNUBİ QAFQAZIN DƏYİŞƏN TƏHLÜKƏSİZLİK ARXİTEKTURASI: AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ MÜTTƏFİQLİYİ KONTEKSTİNDƏ

**Elvin ŞİRİNOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 22 noyabr 2025; çapa qəbul edilmişdir: 2 dekabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.

Received: 22th of November, 2025; accepted: 2th of December, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər:** *İkinci Qarabağ Müharibəsi, Azərbaycan-Türkiyə İttifaqı, şəbəkə mərkəzli müharibə, Şuşa Bəyannaməsi, geostrateji çətir, Orta Dəhliz*

## Giriş

İkinci Qarabağ Müharibəsi 2020-ci ilin sentyabrın 27-də, 2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq başladı. Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan və 44 gün davam edən əks-hücum əməliyyatı 30 illik işğala son qoyulması və ərazi bütövlüyünün bərpası ilə nəticələndi (23). Bu tarixi qələbənin əldə edilməsində, Azərbaycanın hərbi potensialının keyfiyyətcə yeni səviyyəyə çatmasında Türkiyə ilə uzun illər ərzində qurulan sıx əməkdaşlıq həlledici rol oynamışdır. Bu əlaqələr həm dərin tarixi və ideoloji təməllərə, həm də rəsmi strateji sənədlərə əsaslanır.

Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın hüquqi əsasını 2010-cu ildə imzalanan “Türkiyə Respublikası ilə Azərbaycan Respublikası Arasında Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi” təşkil edir. Bu Sazişin ən mühüm xüsusiyyəti, tərəflərdən birinin üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, hücuma məruz qalan tərəfin dəstəklənməsini nəzərdə tutmasıdır (2, s. 2). Sözügedən Sazişin imzalanmasından sonra iki ölkə arasında çoxsaylı birgə hərbi təlimlər həyata keçirilmişdir (3, s. 328).

“Türkiyənin Azərbaycana göstərdiyi bu çoxşaxəli dəstək müasir beynəlxalq münasibətlər nəzəriyyəsində “ağıllı güc” konsepsiyasının uğurlu tətbiqi kimi qiymətləndirilməlidir. Belə ki, Ankara sadəcə hərbi arsenalını (sərt güc) deyil, həm də “Bir millət, iki dövlət” ideologiyasının yaratdığı mənəvi-siyasi legitimliyi (yumşaq güc) strateji şəkildə sintez etmişdir. Türkiyənin diplomatik masada nümayiş etdirdiyi qətiyyət Azərbaycanın hərbi sahədəki hərəkət sərbəstliyini qorumuş, eyni zamanda PUA texnologiyası kimi yüksək texnoloji hərbi resurslar bu ideoloji birliyin sahədəki praktik nəticəsini təmin etmişdir. Bu sinerji, regional status-kvonun dəyişdirilməsində təkcə silahların deyil, həm də sarsılmaz strateji və ideoloji ittifaqın nə dərəcədə həlledici olduğunu nümayiş etdirən elmi və siyasi bir yenilikdir.

1992-ci ildən bəri mövcud olan rəsmi hərbi əməkdaşlıq sazişləri və xüsusən də 2010-cu il Sazişinin qarşılıqlı dəstək prinsipi, iki dövlət arasındakı geosiyasi təməlin güclənməsinə səbəb olmuşdur. Bu əlaqə “bir millət, iki dövlət” siyasi diskursu ilə müəyyənləşir (5, s. 91), bu ideoloji baza Türkiyənin Azərbaycana verdiyi dəstəyin mahiyyətini təşkil edir və hərbi sahədə də konkretləşmişdir. Xüsusilə, 2017-ci ildə imzalanan müdafiə

* *doktorant, Azərbaycan Turizm və Menecment Universiteti*
*e-mail:* elvin.shirinov008@gmail.com
https://doi.org/10.30546/25194011.2025.14.5.3046

sənayesi sahəsində əməkdaşlıq sazişi Azərbaycan Silahlı Qüvvələrinin komanda heyətinin türk mütəxəssisləri tərəfindən hazırlanmasının başlanğıcı üçün əsas yaratmışdır.

## 1. Türkiyənin regional siyasəti və geosiyasi kontekst

Dağlıq Qarabağ münaqişəsi, əsas qlobal aktorların daxili siyasi gündəmlərə, COVID-19 pandemiyasına və bunun törətdiyi makro-iqtisadi çətinliklərə yönəldiyi bir konfiqurasiya zamanı Türkiyə üçün geostrateji boşluq yaratdı. Bu mülayim beynəlxalq kontekstdə Türkiyə Dağlıq Qarabağdakı regional status-kvonun fundamental şəkildə dəyişməsinə nail oldu.

Hazırda Türkiyə həm PUA texnologiyasında strateji üstünlük, həm də Cənubi Qafqaz təhlükəsizlik arxitekturasında artıq rol oynayan subyektdir. Türkiyənin Azərbaycanın PUA təchizatı bazarına artan girişi bir çox analitik parametrlər baxımından kritik əhəmiyyətə malikdir.

İkinci Qarabağ Müharibəsi Cənubi Qafqazda regional güc balansının dəyişməsinə səbəb oldu. Bu prosesdə Türkiyənin Azərbaycana göstərdiyi diplomatik və hərbi-siyasi dəstək regiondakı mövcudluğunu əhəmiyyətli dərəcədə gücləndirdi. Türkiyənin rəsmi hərbi əməkdaşlığı, o cümlədən yüzlərlə zabitin türk akademiyalarından məzun olması, davamlı təhsil və təlim vasitəsilə həyata keçirilən dəstək, Azərbaycan Silahlı Qüvvələri üçün kritik əhəmiyyətli bir döyüş çarpanı (*combat multiplier*) rolunu oynayaraq qələbədə həlledici oldu. Türkiyə Cənubi Qafqazın əsas aktorlarındandır və bu region Türkiyə üçün geosiyasi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Ankara nəqliyyat-logistika və enerji zəncirlərinin inkişafında, bu layihələrdə bilavasitə iştirakda və bu marşrutların öz ərazisinə çıxarılmasında maraqlıdır. Azərbaycanla münasibətlər isə Türkiyənin regiondakı təsirini artırmasına və xarici siyasətinin türk vektorunu inkişaf etdirməsinə kömək edən mühüm rol oynayır. Azərbaycan və Ermənistan arasındakı ərazi münaqişəsi uzun müddət Cənubi Qafqazın inkişafını müəyyənləşdirmiş və regionda yüksək münaqişə potensialını saxlamışdır ki, bu da regiondan kənar aktorların maraqlarına toxunurdu. Mübahisəni diplomatik yollarla həll etmək üçün çoxsaylı cəhdlərə baxmayaraq, tərəflərin barışmazlığı, onların əlaqə qurmaq istəməməsi, Qarabağ məsələsinin Bakı və İrəvan üçün öz müqəddəratını təyinetmə elementinə çevrilməsi məsələnin sülh yolu ilə həllinin mümkünsüzlüyünü əvvəlcədən müəyyən etmişdir (10, s.136).

Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnən 2020-ci il hadisələri Cənubi Qafqazda güc balansını dəyişdirdi. Ankara uzun müddət Cənubi Qafqazda siyasi və iqtisadi təsirini artırmağa çalışsa da, digər dövlətlərlə, xüsusən Rusiya ilə rəqabət ona belə imkanlar vermirdi. Bundan əlavə, Türkiyənin regiondakı ambisiyaları Cənubi Qafqazda güc balansının qorunmasında maraqlı olan digər regiondan kənar dövlətlərdə də narahatlıq doğururdu.

## 2. Müharibə dönəmində Türkiyənin siyasi və diplomatik dəstəyi

İkinci Qarabağ Müharibəsi başladığı andan etibarən Türkiyə rəsmi Ankara səviyyəsində Azərbaycana qarşı şərti olmayan və qətiyyətli siyasi dəstək nümayiş etdirdi. Xarici İşlər Naziri Mövlud Çavuşoğlunun və Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatları Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün apardığı əks-hücum əməliyyatlarını tamamilə dəstəklədiyini birmənalı şəkildə ifadə etdi. Bu dəstək yalnız sözlə yox, həm də beynəlxalq təşkilatlar və platformalarda, o cümlədən NATO və BMT-də Azərbaycanın mövqeyini müdafiə etməklə təzahür etdi. Türkiyə bu qətiyyətli mövqeyi ilə münaqişəyə xarici müdaxilə cəhdlərinin qarşısını almağa və Azərbaycanın hərbi-siyasi manevr sahəsini genişləndirməyə hədəflənmişdi (3, s. 317).

Türkiyənin diplomatik dəstəyinin əsas sütununu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün tam və qeyd-şərtsiz dəstəklənməsi təşkil edirdi. Tür-

kiyə rəhbərliyi müntəzəm olaraq BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qətnamələrinə (822, 853, 874 və 884) istinad edir, Ermənistanın işğalçı olduğunu vurğulayır və Azərbaycanın öz ərazilərində əməliyyat keçirməsinin beynəlxalq hüquq normalarından irəli gələn özünümüdafiə hüququ olduğunu qeyd edib **(**24**)**.

Bu strategiya Azərbaycanın hərbi əməliyyatlarını beynəlxalq legitimlik çərçivəsinə salaraq, Ermənistanın "humanitar fəlakət" haqqında bəyanatlarını neytrallaşdırmağa və müharibənin əsl mahiyyətini - işğalın sona çatdırılması məqsədini - beynəlxalq ictimaiyyətə çatdırmağa xidmət edib.

## 3. Minsk Qrupu formatına alternativ yanaşma və regional həll prinsipinin irəli sürülməsi

Müharibə dövründə Türkiyə, Dağlıq Qarabağ münaqişəsinin otuz il ərzində həll olunmamasının əsas səbəbkarı kimi ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyini hədəf alaraq bu formatı sərt şəkildə tənqid etmişdir. Ankara, xüsusilə Minsk Qrupunun həmsədrlərinin (Rusiya, Fransa və ABŞ) münaqişəni həll etmək əvəzinə, "dondurulmuş" vəziyyətdə saxlamağa xidmət edən qərəzli və qeyri-effektiv vasitəçilik missiyasını kəskin tənqid atəşinə tutmuşdur. Belə ki, həmsədrlərin hər biri fərqli geosiyasi maraqlara sahib olsa da, onların ortaq nöqtəsi status-kvonun qorunub saxlanılması idi ki, bu da həm Azərbaycanın ərazi bütövlüyünə zidd idi, həm də liderlərin və xalqların maksimalist mövqeləri fonunda danışıqlar prosesini imitasiyaya çevirirdi.

Ankara problemin həlli üçün "regional aktorlar tərəfindən regional həll" prinsipini irəli sürərək, beynəlxalq vasitəçiliyin uğursuzluğunu faktlarla əsaslandırmışdır (20; 13). Türkiyənin bu yanaşması yalnız diplomatik etiraz deyil, gələcək sülh və təhlükəsizlik arxitekturasında özünün Cənubi Qafqazda legitimləşmiş bir aktor kimi rolunu təsdiqləmək və regionun taleyini regiondankənar qüvvələrin diktəsindən çıxarmaq strateji məqsədini daşıyırdı. Xüsusilə Qərb həmsədrlərinin (ABŞ və Fransa) prosesdəki passivliyi və Rusiyanın regionda təkbaşına sülhməramlı missiya yerləşdirmək cəhdləri qarşısında, Türkiyə öz hərbi-siyasi iştirakı ilə yeni bir regional balans yaratmışdır.

Bu strateji xətt, Azərbaycan və Türkiyənin birgə səyləri nəticəsində əldə olunan hərbi qələbələrin regional əməkdaşlıq çərçivəsində möhkəmləndirilməsinə hesablanmışdı. Beləliklə, Türkiyə "3+3" (Azərbaycan, Ermənistan, Gürcüstan + Türkiyə, Rusiya, İran) kimi regional platformaları təşviq etməklə Minsk Qrupunun onilliklər boyu davam edən və nəticə verməyən vasitəçilik inhisarını sındırmağı hədəfləyirdi. Bu, həm də Ermənistan rəhbərliyinə verilən bir ismarış idi ki, beynəlxalq birliyin və uzaq vasitəçilərin tanınma və ya müdaxilə vədləri artıq sahədəki reallıqları dəyişmək gücünə malik deyil.

## 4. Hərbi əməkdaşlıq və Azərbaycan Silahlı Qüvvələrinin transformasiyası

Türkiyənin Azərbaycana artan dəstəyi, xüsusilə də ötürdüyü Pilotsuz Uçuş Aparatları (PUA) sistemləri ilə özünü aydın şəkildə göstərdi. İkinci Qarabağ Müharibəsində "Bayraktar TB-2" pilotsuz uçuş aparatlarının tətbiqi döyüş meydanında keyfiyyətcə yeni bir fərq yaratdı və Azərbaycanın qələbəsinə həlledici töhfə verdi. Bu PUA-lar Azərbaycanın hərbi üstünlüyünü təmin edərək, hava üstünlüyü yaratdı və quru qoşunlarının əməliyyat hədəflərinə maneəsiz çatmasına imkan verən əsas faktor oldu. Azərbaycanın İkinci Qarabağ Müharibəsindəki hərbi nailiyyətlərini sadəcə fərdi texnoloji vasitələrin, o cümlədən PUA-ların uğuru kimi deyil, daha geniş müstəvidə – **"**Şəbəkə Mərkəzli Müharibə" (Network-Centric Warfare) doktrinasının tətbiqi kimi qiymətləndirmək lazımdır. Türkiyənin bu texnoloji infrastrukturun qurulmasındakı rolu məhz taktiki məlumatların döyüş meydanından real vaxt rejimində mərkəzi komandanlıq nöqtələrinə ötürülməsi və qərar qəbuletmə müddətinin minimuma endirilməsini təmin edən rəqəmsal idarəetmə sistemlərinin inteqrasiyası ilə xarakterizə olunur. Bu sistem sensorlar, komanda

mərkəzləri və zərbə vasitələri arasında vahid məlumat mühiti yaradaraq, Azərbaycan Ordusuna düşməndən daha çevik hərəkət etmək və dinamik döyüş şəraitində situasiya üstünlüyü qazanmaq imkanı vermişdir. Beləliklə, Türkiyənin dəstəyi ilə formalaşan bu intellektual hərbi infrastruktur, kinetik gücü (silahları) strateji zəka (məlumat) ilə birləşdirərək müasir dövrün mərkəzləşdirilmiş idarəetmə modelini sahədə uğurla reallaşdırmışdır.

*4.1. Hərbi qüvvələrin transformasiyası:*

Son otuz illik müddətdə Azərbaycanın Baş Qərargahı (BQ) Türkiyə və Almaniya modellərinə uyğun olaraq Sovet doktrinası əsaslı qurumdan Qərb (NATO) standartlarına uyğun struktura transformasiya edilmişdi. Bu təkamül prosesi əsasən Türk Silahlı Qüvvələrinin (TSQ) hərbi əməkdaşlığı və zabit mübadilə proqramları vasitəsilə həyata keçirilmiş, hərbi heyətə uğurlu operativ səviyyəli kampaniya strategiyaları formalaşdırmağa və icra etməyə imkan vermişdi.

Birinci müharibə Sovet hərbi irsinə malik iki qüvvə arasında baş verdiyi halda, ikinci müharibə hələ də köhnə strukturlu ordu ilə Qərb standartlarına inteqrasiya olunmuş yeni Silahlı Qüvvələr arasında idi.

Türkiyənin rəsmi hərbi əməkdaşlığı, təhsil və təlim vasitəsilə Azərbaycana göstərdiyi dəstək, yüzlərlə zabitin türk akademiyalarından məzun olması, eləcə də birgə təlimlər Azərbaycan Silahlı Qüvvələri üçün kritik əhəmiyyətli bir döyüş çarpanı (*combat multiplier*) olmuşdur.

Bu modernləşmə səyləri neft gəlirləri ilə maliyyələşdirilərək ordunun köhnə Sovet modelindən NATO standartlarına uyğun doktrinaya keçidini və avadanlıqla təchizatını prioritetləşdirmişdir. Türkiyə Silahlı Qüvvələri (TSK) tərəfindən NATO standartlarına uyğun verilən təlimlər Azərbaycan hərbi kadrlarının döyüş hazırlığını artırdı, bu isə “Müasir Döyüş” şəraitində çevik qərar qəbuletməyə imkan verdi. Nəticədə, Azərbaycan ordusu döyüş meydanına ultramüasir PUA taktikalarını və texnologiyalarını özündə birləşdirən, müasir doktrinal kampaniya dizaynı və planlamasına malik olan, NATO-nun əməliyyat prinsiplərinə yaxın bir hərbi qüvvə çıxartdı (25).

*4.2. PUA texnologiyasının həlledici rolu:*

Türkiyənin milli müdafiə sənayesindəki PUA inkişafı indi Azərbaycana transfer edilir, bu da Qarabağ cəbhəsində hərbi qüvvələr balansını dəyişdirən katalizatora çevrilir. Müdafiə-iqtisadi nöqteyi-nəzərdən, TB-2 Türkiyə üçün əvvəllər İsrailin dominantlıq etdiyi Azərbaycan silah sənayesində güclü bir mövqe yaradır (18).

Qeyd etmək vacibdir ki, bu eskalasiya Türkiyə tərəfinin xüsusi rolu, ilk növbədə hərbi-sənaye kompleksinin məhsullarının tədarükünün genişləndirilməsi ilə xarakterizə olunurdu. Statistik göstəricilər Türkiyə və Azərbaycan arasında hərbi-texniki əməkdaşlığın 2020-ci ildə keyfiyyətcə yeni mərhələyə keçdiyini təsdiqləyir. Belə ki, 2020-ci ilin ilk 9 ayında Türkiyənin Azərbaycana hərbi ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6 dəfə artaraq 123 milyon dollara çatmış, [27]. Azərbaycan reaktiv artilleriya, zirehli transportyorlar, raketlər, habelə “Bayraktar TB2” PUA-ları və onların döyüş sursatlarını satın almışdı [9, s. 60]. Bu artım tərəflər arasında hərbi-strateji koordinasiyanın operativ səviyyədə gücləndirilməsinin birbaşa göstəricisi kimi qiymətləndirilə bilər.

Satışların 2020-ci ildə altı dəfə artması Türkiyənin dəstəyinin intensivliyini göstərirdi və müharibənin gedişatına birbaşa təsir etdi. “Bayraktar TB2” PUA-ları müharibədə sözün əsl mənasında “oyun dəyişdirici” təsirə malik oldu (22, s. 1; 16, s. 1).

Bayraktar TB2 PUA-larının əsas taktiki rolu fasiləsiz kəşfiyyat və nəzarət imkanları yaratmaq idi. Onların uğuru Ermənistanın köhnəlmiş Sovet hava hücumundan müdafiə sistemlərinin, o cümlədən S-300 komplekslərinin kiçik PUA-lara qarşı effektiv olmaması səbəbindən (16) və zirehli texnikasını yüksək dəqiqliklə sıradan çıxararaq, döyüş meydanında keyfiyyət fərqini yaratdı. PUA-lar bu sistemləri və zirehli texnikanı

yüksək dəqiqliklə sıradan çıxararaq döyüş meydanında keyfiyyət fərqini yaratdı. Nəticədə, PUA-lar Azərbaycanın hücum əməliyyatlarında açıq-aşkar əhəmiyyətli rol oynadı (17) və onun qələbəsinə yol açdı (14). Azərbaycanın hava üstünlüyünü təmin edən və onun əməliyyat hədəflərinə maneəsiz çatmasına imkan verən əsas faktor oldu (16, s. 4 ).

*4.3. Strateji koordinasiya və nəticə*

Türkiyənin regional siyasətindəki dönüş, xüsusilə 2020-ci ilin iyulunda baş verən Tovuz döyüşlərindən sonra keçirilmiş birgə hərbi təlimlərdə özünü qabarıq şəkildə göstərdi. Belə ki, Türkiyə və Azərbaycan Silahlı Qüvvələriin müharibədən qısa müddət əvvəl iyul və avqust aylarında birgə hərbi təlimlər keçirməsi, eləcə də Türkiyə iki F-16 qırıcısını Gəncə şəhərində saxlaması, (19) müharibənin gedişatına təsir edən operativ hazırlıq və koordinasiya səviyyəsinin yüksəldilməsi, habelə strateji çəkindirmə (*deterrence*) siqnalının verilməsi kimi iki əsas strateji nəticə ilə xarakterizə olunur. Birgə təlimlər Azərbaycan və Türkiyə orduları arasında əməliyyat planlarının sınaqdan keçirilməsi və komandanlıq zəncirinin uyğunlaşdırılması baxımından kritik əhəmiyyətə malik idi. Nəticə etibarı ilə müttəfiq orduların müştərək əməliyyat aparma qabiliyyətini maksimuma çatdırmaqla diplomatik və psixoloji baxımdan güclü bir strateji çəkindirmə vasitəsi rolunu oynadı. Bu təlimlər Ermənistan rəhbərliyinə Türkiyənin Azərbaycana qətiyyətli və açıq dəstəyini nümayiş etdirərək, lazım gələrsə hərbi əməliyyatların gedişatına birbaşa təsir edə biləcəyi siqnalını verdi (20). Ekspertlər qeyd edirlər ki, təkcə 2019-cu ildə 13 birgə Türkiyə-Azərbaycan hərbi təlimi keçirilmişdir, 2020-ci ilin yay təlimlərindən sonra isə Türkiyə hərbi kontingenti Azərbaycan ərazisində qalmışdır ki, bu kontingentin əməliyyatların planlaşdırılmasında, PUA-ların idarə edilməsində və s. iştirak etdiyi ehtimal olunur [7, s. 102–103].

ASELSAN tərəfindən həyata keçirilən bu layihə ilə hər iki ölkənin hərbi hava qüvvələri Azərbaycan hava məkanına nəzarəti təmin etməklə yanaşı, birgə əməliyyatlar aparmaq imkanına da sahib olur. Lakin "HAKİM" layihəsinin əhəmiyyəti sadəcə taktiki idarəetmə ilə məhdudlaşmır; bu sistem Türkiyə və Azərbaycanın hava məkanını NATO standartlarına uyğun şəkildə inteqrasiya edərək, Egey dənizindən Xəzər hövzəsinə qədər uzanan vahid bir "Geostrateji Çətir" formalaşdırır. Bu "Vahid Səma" modeli regional hava təhlükəsizliyinin təmin olunmasında kənar aktorlardan asılılığı minimuma endirən və Türk dünyasının hava məkanını vahid bir müdafiə zolağına çevirən strateji bir konseptdir. Belə bir kompleks hava nəzarət zonası regionda hərbi balansın Azərbaycanın lehinə möhkəmlənməsinə və istənilən hava təhdidinə qarşı kollektiv çəkindirmə gücünün yaranmasına xidmət edir.

Müdafiə Sənayesi Naziri Haluk Görgünün açıqlamasına görə Türkiyə və Azərbaycan HAKİM hava idarəetmə və nəzarət sistemi layihəsini həyata keçirməklə, ortaq hava məkanına nəzarət zonası Egey dənizindən Xəzər hövzəsinə qədər uzanacaqdır. ASELSAN tərəfindən həyata keçirilən bu layihə ilə hər iki ölkənin hərbi hava qüvvələri Azərbaycan hava məkanına nəzarəti təmin etməklə yanaşı, birgə əməliyyatlar aparmaq imkanına da sahib olur (4).

İkinci Qarabağ Müharibəsindən sonra Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq keyfiyyətcə *yeni bir müstəviyə – hərbi-texnoloji tərəfdaşlıq mərhələsinə qədəm* qoymuşdur. Artıq Azərbaycan sadəcə hazır hərbi məhsulları idxal edən tərəf deyil, Türkiyə ilə müştərək istehsal və modernizasiya layihələrində iştirak edən strateji subyekt kimi çıxış edir. Bu keçidin ən bariz nümunələrindən biri Azərbaycanda PUA-lara xidmət və istehsal mərkəzlərinin yaradılması, həmçinin Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalındakı "Su-25" təyyarələrinin Türkiyənin TUSAŞ şirkəti tərəfindən modernizasiya edildiyi "Laçın" layihəsidir. Bu layihələr tərəflər arasındakı münasibətlərin birtərəfli hərbi yardımdan çıxaraq, ortaq müdafiə sənayesi ekosisteminin qurulmasına xidmət etdiyini və Azərbaycanın müdafiə potensialının xarici asılılıqdan qurtularaq tex-

noloji avtonomluğa doğru irəlilədiyini, *hərbi asılılıqdan hərbi-texnoloji tərəfdaşlığa* keçidi göstərir.

### 5. Geniş geosiyasi məqsədlər və beynəlxalq təsirlər

Türkiyənin geosiyasi məqsədləri və regional ambisiyaları ilə bağlı olaraq, Türkiyənin Azərbaycana verdiyi "şərti olmayan" dəstək, Ankaranın geniş regional məqsədlərini əks etdirirdi. Bu dönüş nöqtəsi, əsasən, Türkiyənin 2008-ci ildə Ermənistanla münasibətləri normallaşdırma siyasətinin uğursuzluğundan sonra Türkiyə-Azərbaycan əlaqələrinin dərinləşməsi və Ədalət və İnkişaf Partiyasının (AKP) xarici siyasətindəki yumşaq güc yanaşmasından uzaqlaşma ilə bağlı idi. Bu dəstəyin arxasında dörd əsas geosiyasi maraq dayanır:

Birincisi, enerji təhlükəsizliyi və iqtisadi maraqlar Ankaranın əsas strateji məqsədlərindən biri idi, belə ki, Azərbaycan Türkiyənin enerji təhlükəsizliyi üçün həyati əhəmiyyətə malikdir (2020-ci ilin birinci yarısında qaz idxalı 23% artıb) (19) və SOCAR Türkiyədə ən böyük xarici investordur (26).

Hərbi qələbənin yaratdığı yeni reallıqlar həm də qlobal iqtisadi marşrutların təhlükəsizliyi məsələsini aktuallaşdırmışdır. Bu kontekstdə, Türkiyə-Azərbaycan hərbi ittifaqı sadəcə ərazi bütövlüyünün qorunması deyil, həm də "Orta Dəhliz" (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) layihəsinin yeganə real təhlükəsizlik qarantı kimi çıxış edir. Çinlə Avropanı birləşdirən bu strateji xəttin Cənubi Qafqaz seqmenti məhz bu ittifaqın təmin etdiyi hərbi-siyasi sabitlik sayəsində beynəlxalq investorlar və logistika nəhəngləri üçün "təhlükəsiz liman" statusu qazanmışdır. Beləliklə, Bakı və Ankara arasındakı hərbi koordinasiya regionu qlobal iqtisadiyyatın kəsişmə nöqtəsinə çevirərək, marşrutun keçdiyi coğrafiyada hər hansı kənar müdaxilə və ya qeyri-sabitlik riskini minimuma endirən strateji bir qalxan funksiyasını yerinə yetirir.

İkincisi, Türkiyə regional nüfuzun gücləndirilməsini hədəfləyərək, nüfuzlu bir regional gücə çevrilməyi və ATƏT-in Minsk Qrupunun səmərəsizliyini gördüyü bir şəraitdə, Dağlıq Qarabağ məsələsinin siyasi həllində daha fəal rol almağı arzulayırdı.

Üçüncüsü, Ankaranın strateji məqsədi Rusiya ilə rıçaq balansını qurmaq idi. Yəni, Qarabağda Rusiya təsirini tamamilə aradan qaldırmaqdan daha çox, Rusiyanın Qafqazdakı həssas nöqtələrindən istifadə edərək Suriyada və ya Liviyadakı mübahisələrdə öz mövqeyini gücləndirmək üçün geosiyasi rıçaq əldə etmək idi (19).

Bu siyasət, Rusiyanın Azərbaycandakı təsirini itirməkdən ehtiyat etməsinə səbəb oldu və Türkiyənin Cənubi Qafqazda artan təsirinin geosiyasəti dəyişdirdiyini göstərdi.

Dördüncüsü, AKP-nin siyasətində millətçi fiqurların ön plana çıxması Qafqaz geosiyasətini daxili siyasi prioritetə çevirmişdi.

Nəticədə, Türkiyənin qətiyyətli dəstəyi regionun geosiyasətini dəyişdirərək Rusiyanın uzunmüddətli hökmranlığını sarsıtdı və Azərbaycanın hərbi üstünlüyünü təmin etdi. Lakin bu dəstək həm də Rusiyanın "qırmızı xətləri" ilə bağlı riskləri özündə ehtiva edirdi. Moskva atəşkəs danışıqlarından Türkiyəni kənarlaşdırmağa çalışsa da, Türkiyənin hərbi-texnoloji uğuru regional nizamın yenidən formalaşmasında onun maraqlarının nəzərə alınmasını qaçılmaz etdi.

Türkiyənin Azərbaycandakı rolu nəinki müttəfiq ordunun modernizasiya imkanını, həm də öz yurisdiksiyası daxilində və ondan kənarda transatlantik ittifaqa strateji əlavə dəyər vermək potensialını nümayiş etdirir (28).

Prezident Rəcəb Təyyub Ərdoğanın sözlərinə görə, 44 günlük müharibədə Ankaranın Azərbaycana dəstəyi Türkiyənin ABŞ və Rusiya ilə yanaşı "dünya nizamında layiqli yerini" axtarışının bir hissəsi idi (14, s. 2).

Azərbaycan və Türkiyə arasında onilliklər boyu inkişaf edən hərbi-siyasi əməkdaşlıq 15 iyun 2021-ci il tarixində imzalanmış Şuşa Bəyannaməsi ilə özünün ən yüksək

zirvəsinə çatmışdır. Bu tarixi sənəd 2010-cu il sazişinin yaratdığı hüquqi bazanın məntiqi davamı olmaqla yanaşı, iki ölkə arasındakı münasibətləri rəsmən "strateji müttəfiqlik" səviyyəsinə qaldırmışdır. Şuşa Bəyannaməsi regiondakı "üçüncü tərəflər" və kənar aktorlar üçün ciddi bir strateji çəkindirmə (deterrence) faktoru rolunu oynayır. Xüsusilə, Cənubi Qafqazda status-kvonun dəyişməsindən narahat olan qüvvələr üçün bu sənəd Azərbaycanın təhlükəsizliyinin birbaşa Türkiyənin (və dolayısı ilə NATO-nun ən güclü ordularından birinin) təhlükəsizlik çətiri altında olduğunun bəyanıdır. Bu müttəfiqlik həm də regionda militarist meyilləri stimullaşdıran və ya Ermənistanı revanşizmə sövq edən kənar siyasi mərkəzlərin (məsələn, Fransa kimi aktorların) manevr imkanlarını məhdudlaşdırır. Beləliklə, Şuşa Bəyannaməsi sadəcə iki tərəfli bir sənəd deyil, Avrasiyanın yeni təhlükəsizlik xəritəsində sabitliyi təmin edən fundamental bir sütundur.

**Nəticə**

Beləliklə, 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri coğrafi və siyasi cəhətdən strateji əhəmiyyətə malik Qarabağ bölgəsinin işğal altında olan hissələrini Ermənistan ordusundan geri almaq məqsədilə uğurlu birgə əməliyyat həyata keçirdi. Bu əməliyyat Azərbaycanın ərazilərinin böyük hissəsini bərpa etmək kimi strateji məqsədinə çatmasına imkan verdi. Kampaniyanın dizaynı məqsədləri, üsulları və vasitələri effektiv şəkildə tarazlaşdıraraq, əməliyyat sənətinin əlamətlərini aydın şəkildə nümayiş etdirdi. Əməliyyat baxımından, Azərbaycan Silahlı Qüvvələrinin birgə planlaşdırması, hazırlığı və yüksək döyüş effektivliyi erməni rəqibinə nisbətən həlledici üstünlük yaratdı. Nəticə olaraq, Azərbaycanın 2020-ci ildə Qarabağdakı hərbi kampaniyasının uğuru, hərbi institutlarında uzun müddət davam edən peşəkarlaşma və modernləşmə dövrünün (yüksək texnologiyalı dəqiqliklə zərbə endirmə qabiliyyətlərinin uğurla əldə edilməsi daxil olmaqla) və buna tamamlayıcı qətiyyətli siyasi qərarların məntiqi nəticəsi idi.

Azərbaycanın 2020-ci ilin payızında Qarabağda qazandığı strateji qələbə, ilk növbədə, asimetrik hərbi qabiliyyət investisiyaları və Türk/İsrail PUA-larının (pilotsuz uçuş aparatları) təmin etdiyi taktiki və əməliyyat səviyyəsində oyun dəyişdirici üstünlük ilə izah olunur.

"Bayraktar TB2" PUA-larının müharibədəki əsas taktiki rolu fasiləsiz kəşfiyyat və nəzarət təmin etmək idi ki, bu da dağlıq ərazidə belə düşmən mövqelərini və təchizatını daimi izləməyə şərait yaratdı. PUA-ların uğuru, Ermənistanın köhnəlmiş Sovet hava hücumundan müdafiə sistemlərinin (o cümlədən S-300-lərin) kiçik PUA-lara qarşı effektiv olmaması səbəbindən mümkün oldu. Bu amil TB2-lərə maneəsiz əməliyyatlar keçirmək imkanı verdi. Bu müharibə, PUA-ların ənənəvi quru qoşunlarından üstün gəldiyi bir "postmodern münaqişə" nümunəsi kimi qiymətləndirilərək, PUA-ların təkbaşına müharibəni qazanmasa da, quru qoşunlarının uğuru üçün zəmin hazırlayan hərbi doktrinanın dəyişməsinə səbəb olan əsas faktor olduğunu sübut etdi.

Azərbaycanın XTQ-yə əhəmiyyətli investisiya yatırması və bu qüvvələrin inkişafı, dəqiq zərbə imkanlarını tamamlayırdı. Türk hərbi dəstəyi ilə inkişaf edən XTQ, döyüş əməliyyatlarını düşmənin arxa zonasına qədər uzadaraq komandanlıq şəbəkələrini, kritik infrastrukturu və hava hücumundan müdafiə sistemlərini hədəf alıb məhv etdi.

Türkiyənin bu dəstəyi sadəcə hərbi təchizatla məhdudlaşmayıb. 2010-cu il Strateji Sazişinin hüquqi çətiri altında, Ankara Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq hüququ Azərbaycanın lehinə tətbiq etməklə yanaşı, Minsk Qrupunun rolu da daxil olmaqla, regional status-kvonu diplomatik səviyyədə də sarsıtmışdır.

Nəticə etibarilə, İkinci Qarabağ Müharibəsi Türkiyənin regional siyasəti üçün həlledici bir dönüş nöqtəsi oldu, Ankaranın Cənubi Qafqazda öz geosiyasi mövqeyini möhkəmləndirməsinə və Rusiyanın uzunmüddətli təsirini strateji şəkildə balanslaşdırmasına imkan verdi. Bu müharibə həm də "bir millət, iki dövlət" strategiyasının hərbi-texnoloji

inteqrasiya vasitəsilə regional güc balansını dəyişdirməkdəki yüksək effektivliyini nümayiş etdirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb. (https://president.az/az/articles/view/52115)
2. Türkiyə Respublikası ilə Azərbaycan Respublikası Arasında Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi (2010). (https://e-qanun.az/framework/21158)
3. Milli Hava Komuta Kontrol Sistemi Ege’den Hazar’a havaya HAKİM // İstanbul Ticaret Gazetesi. (https://istanbulticaretgazetesi.com/milli-hava-komuta-kontrol-sistemi-egeden-hazara-havaya-hakim)
4. Аватков В. А. Турция и Азербайджан: одна нация – одно государство? // Мировая экономика и международные отношения. 2022, Т. 66, № 2, с. 90-100.
5. Багаева А. В., Терновая Л. О. Правовые основы европейской интеграции: учебник для вузов. 2-е изд. М.: Юрайт, 2025, 266 с.
6. Буря на Кавказе / Д. Барри, Г.М. Дерлугьян, А.М. Искандарян, М. Казалет, А.В. Лавров, К.В. Макиенко, С.М. Маркедонов, Л.А. Нерсисян, Р.Н. Пухов, Д.В. Тренин, К. Хас, М.Ю. Шеповаленко; под ред. Р.Н.Пухова. – М.: Центр анализа стратегий и технологий, 2021, 128 с.
7. Вознесенский И.С. Темпоральный интеллект: от секрета овладения временем к эффективному управлению // Миссия конфессий, 2022, Т. 11, №3 (60), с. 90-97.
8. Гузаеров Р.И. Военно-техническое сотрудничество Турции и Азербайджана: дорога к интеграции? // Россия и новые государства Евразии, 2023, №3, с. 55–67.
9. Маркедонов С.М. Тридцать лет Нагорно-Карабахского конфликта: основные этапы и перспективы урегулирования // Постсоветские исследования, 2018, № 2, с. 129-138.
10. Саможнев А. У въезжающих в США пограничники начали проверять мобильные телефоны //. Российская газета, 31 март, 2025.
11. Терновая Л.О. Геополитическая лимология: учебник. М.: ИНФРА-М, 2026, 225 с.
12. Терновая Л.О., Чапкин Н.С. Международные отношения в эпоху искусственного интеллекта //. Культура мира, 2025, Т. 13, №5 (48), с. 153-162.
13. Avdaliani E. Turkey’s Win-Win Strategy in the Nagorno-Karabakh Conflict //. BESA Center Perspectives, 2020, No. 1816, (1), pp. 1-4.
14. Bershidsky L. Drones Have Raised the Odds and Risks of Small Wars //. Bloomberg Opinion. 2020. November 30.(https://www.bloomberg.com/opinion/articles/2020-11-30/drones-have-raised-the-odds-and-risks-of-small-wars).
15. Erarslan F. Azerbaycan-Türkiye İlişkilerinde Önemli Bir Kavşak: İkinci Karabağ Savaşı //. Türk Dünyası Araştırmaları, 2021, Cilt: 129, Sayı: 255, s. 315–334.
16. Erickson E. J. 44-Day War In Nagorno-Karabakh – Turkish drone success or operational art? //. Military Review, 2021, №2021/47, pp. 1-15.
17. Gatopoulos A. The Nagorno-Karabakh Conflict Is Ushering in a New Age of Warfare //. Al Jazeera. 11.October, 2020.
18. Kasapoğlu C. Turkey Transfers Drone Warfare Capacity to Its Ally Azerbaijan // Eurasia Daily Monitor. 2020, Vol.: 17, Issue 144.
19. Keddie P**.** What’s Turkey’s role in the Nagorno-Karabakh conflict? // Al Jazeera, October 30, 2020.
20. Kramer A. E. Armenia and Azerbaijan: What Sparked War and Will Peace Prevail? // The New York Times, 29 January, 2021.
21. Lacoste Y. La géographie, ça sert, d’abord, à faire la guerre. Paris: Maspero, 1976, 213 p.
22. Marston J., Forrest B**.** Armed Low Cost Drones, Made by Turkey, Reshape Battlefields and Geopolitics // Wall Street Journal, 3 June, 2021.
23. Middle East Monitor. Turkey Ready to Support Azerbaijan in Conflict with Armenia, says FM. September 30, 2020. (https://www.middleeastmonitor.com/20200930-turkey-

ready-to-support-azerbaijan-in-conflict-with-armenia-says-fm/)
24. Republic of Türkiye Ministry of Foreign Affairs**.** Press Release Regarding the Resolution Adopted by the French Senate. 2020, No: 300. (https://www.mfa.gov.tr/no_-300_-fransa-senatosu-nun-yukari-karabag-ihtilafina-iliskin-karari-hk.en.mfa)
25. Shahbazov F**.** Tactical Reasons behind Military Breakthrough in Karabakh Conflict //. Eurasia Daily Monitor. Vol. 17. Issue 155. Nov. 3, 2020.
26. SOCAR Annual Report 2020. (https://www.socar.com.tr/uploads/SOCAR_FALIYET_RAPORU_2020_59_INGILIZCE_5.pdf)
27. Toksabay E. Turkish Arms Sales to Azerbaijan Surged before Nagorno-Karabakh fighting // Reuters. 14 October, 2020.
28. Yalçınkaya H. Turkey’s Overlooked Role in the Second Nagorno-Karabakh War, 2021, 6 p.

***Резюме***

***Эльвин Ширинов***

***Меняющаяся архитектура безопасности Южного Кавказа: в контексте стратегического альянса Азербайджан–Турция***

Данная работа всесторонне анализирует качественное измерение стратегического союза между Азербайджаном и Турцией в контексте Второй Карабахской войны 2020 года и определяющую роль этого партнерства в трансформирующейся архитектуре безопасности Южного Кавказа. Основная цель исследования-осветить характер многомерной поддержки, оказанной Турцией Азербайджану, в свете современных теорий международных отношений. В статье поддержка Турции рассматривается не просто как передача военной техники, а в рамках концепции «Умной силы» (Smart Power), представляющей собой синтез военных (жесткая сила) и дипломатико-идеологических (мягкая сила) элементов. Научная новизна работы заключается в том, что военный успех Азербайджана представляется не только результатом использования технологий БПЛА, но и эффективным практическим применением на поле боя способностей «Сетецентрической войны» (Network-Centric Warfare), структурированной при поддержке турецкой военной доктрины.

В статье также подробно рассматривается процесс перехода военных отношений между двумя странами на новый уровень – от военной зависимости к военно-технологическому партнерству (через такие проекты модернизации, как проект «Лачин»). Строительство единой зоны управления воздушным пространством от Эгейского до Каспийского моря с помощью системы управления и контроля ВВС «HAKİM», концептуализированной автором как «Геостратегический зонт», обсуждается в качестве будущей модели безопасности региона. Кроме того, в исследовании подчеркивается глобальное геоэкономическое значение военного союза; обосновывается, что турецко-азербайджанская военная координация является единственным реальным гарантом безопасности проекта «Срединный коридор» (Транскаспийский международный транспортный маршрут).

В заключении на основе научных аргументов демонстрируется, что Шушинская декларация от 15 июня 2021 года является правовой и политической вершиной этого стратегического процесса, выступает мощным фактором «сдерживания» (deterrence) против вмешательства внешних акторов (Франция, Иран и др.) и стала основным столпом прочного мира и стабильности на Южном Кавказе.

**Ключевые слова:** *Вторая Карабахская война, союз Турция-Азербайджан, сетецентрическая война, Шушинская декларация, геостратегический зонт, Срединный коридор*

***Summary***

***Elvin Shirinov***

***The Changing Security Architecture of the South Caucasus: In the Context of Azerbaijan-Türkiye Strategic Alliance***

This research paper comprehensively analyzes the qualitatively new stage of the strategic alliance between Azerbaijan and Türkiye within the context of the 2020 Second Karabakh War and its decisive role in the shifting security architecture of the South Caucasus. The primary objective of the study is to illuminate the essence of Türkiye's multifaceted support for Azerbaijan in the light of contemporary international relations theories. Within the article, Türkiye's support is evaluated not merely as a transfer

of military hardware but within the framework of the "Smart Power" concept, representing a synthesis of both military (hard power) and diplomatic-ideological (soft power) factors. The scientific novelty of the research lies in presenting Azerbaijan's military success not just through the application of UAV technology, but as the effective field implementation of the "Network-Centric Warfare" doctrine established with Turkish support.

Furthermore, the paper investigates the transition of military relations between the two countries to a new dimension-shifting from military dependence to a military-technological partnership (exemplified by the "Lachin" project and other modernization initiatives). The establishment of a unified air control zone stretching from the Aegean Sea to the Caspian Sea via the "HAKİM" Air Management System, termed by the author as a "Geostrategy Umbrella," is analyzed as a future security model for the region. Additionally, the study emphasizes the global geo-economic significance of the military alliance, substantiating that the Türkiye-Azerbaijan military coordination serves as the sole real security guarantor for the "Middle Corridor" (Trans-Caspian International Transport Route) project. Finally, it is scientifically argued that the Shusha Declaration of June 15, 2021, represents the pinnacle of this strategic process, forming a robust "deterrence" factor against the interests of external actors (such as France, Iran, etc.) and becoming the primary guarantor of permanent peace and stability in the South Caucasus.

**Keywords:** *Second Karabakh War, Türkiye-Azerbaijan Alliance, Network-Centric Warfare, Shusha Declaration, geostrophic umbrella, middle corridor*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.